# Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının yaradılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 21 aprel tarixli, 697 saylı sərəncamına əsasən fəaliyyət göstərən Dövlət Dəniz Administrasiyasının əsasında Azərbaycan Respublikasının ~~Nazirlər Kabineti yanında~~ Dövlət Dəniz Administrasiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasında dəniz gəmiçiliyi sahəsində aparılan siyasətin, habelə BMT-nin Beynəlxalq Dəniz Təşkilatı və digər beynəlxalq dəniz təşkilatları ilə əməkdaşlığın, Azərbaycan Respublikasının tərəfdar çıxıdığı beynəlxalq dəniz konvensiyalarının icrasına nəzarətin həyata keçirilməsi səlahiyyətlərinin Azərbaycan Respublikasının ~~Nazirlər Kabineti yanında~~ Dövlət Dəniz Administrasiyasına tapşırılması barədə BMT-nin Beynəlxalq Dəniz Təşkilatına müvafiq bildiriş göndərsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

> 3.1. Azərbaycan Respublikasının ~~Nazirlər Kabinetinin yanında~~ Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamənin layihəsini və həmin administrasiyanın işçilərinin ümumi say tərkibi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
>
> 3.2. qüvvədə olan qanunvericilik aktlarının bu sərəncama uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
>
> 3.3. Bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 6 fevral 2006-cı il***

***№ 1271***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (7 fevral 2006-cı il, № 26) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (28 fevral 2006-cı il, № 2, maddə 110) («VneshExpertService» LLC).***

***27 noyabr 2008-ci il tarixli, 26 nömrəli Fərmana əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional